**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**

"Təsdiq edirəm"
ADNSU-nun Elm və Texnika
işləri üzrə prorektoru
________ g.m.e.d.R.Y.Əliyarov

_________ __________ 2020-ci il

5308.01 - "Ümumi iqtisadiyyat" ixtisası üzrə

doktoranturaya qəbul imtahanın

**PROQRAMI**

**BAKI - 2020**

## Giriş

5308.01 - "Ümumi iqtisadiyyat" ixtisası üzrə doktoranturaya qəbul imtahanının proqramı "Ümumi iqtisadiyyat" ixtisasına qəbul olunmuş doktorantların imtahan suallarının genişləndirilmiş məzmunu əsasında tərtib edilmişdir.

Proqrama daxil edilmiş mövzuların məntiqi ardıcıllığı elə qurulmuşdur ki, imtahanı vermək istəyən, "Ümumi iqtisadiyyat" ixtisası üzrə iddiaçının biliyini tam qiymətləndirmək mümkün olsun.

Proqrama daxil edilmiş mövzular makro və mikroiqtisadi elementləri, onların xüsusiyyətlərini, idarə edilməsinin iqtisadi mexanizmini məntiqi ardıcıllıqla əks etdirir. Bu isə imtahan vaxtı ixtisas üzrə qəbul imtahanını verən iddiaçının sualları başa düşməsini və cavabını asanlaşdırır.

## Mövzu 1. Məhsul (əmtəə) bazarlarının mikroiqtisadiyyatı

Elastiklik, istehlakçı və istehsalçı profisiti. Tələbin qiymət elastikliyi. Təklifin qiymət elastikliyi. Çarpaz elastiklik və tələbin gəlir elastikliyi. İstehlakçı və istehsalçı profisiti. İstehlakçı davranışı. Azalan marjinal faydalılıq qanunu, məcmu faydalılıq, marjinal faydalılıq, marjinal faydalılıq və tələb. İstehlakçı davranışı nəzəriyyəsi, istehlakçı seçimi və büdcə məhdudiyyətləri, faydalılığın maksimumlaşdırılması qaydası. Faydalılığın maksimumlaşdırılması və tələb əyrisi, gəlir və əvəzetmə effektləri.Fərqsizlik əyriləri analizi.

## Mövzu 2. İstehsal xərcləri

İqtisadi xərclər, açıq və qapalı xərclər, qısa və uzun müddətdə xərclər, iqtisadi mənfəət. Qısa müddətdə istehsal əlaqələri, azalan gəlirlər qanunu. Qısa müddətdə istehsal xərcləri, sabit, dəyişən və məcmu xərclər, orta xərclər, marjinal xərclər, xərc əyrilərinin dəyişməsi. Uzun müddətdə istehsal xərcləri /firma ölçüsü və xərclər, uzun müddətdə xərc əyrisi, miqyas effekti, minimum səmərəli miqyas.

## Mövzu 3. Xalis rəqabət

Bazarın dörd modeli. Xalis rəqabətin xarakteristik xüsusiyyətləri. Qısa zaman kəsiyində mənfəətin maksimumlaşdırılması. Məcmu gəlirlər-məcmu xərclər yanaşması, marjinal gəlirlər-marjinal xərclər yanaşması.Marjinal xərclər və qısa zaman kəsiyində təklif, azalan gəlirlər, istehsal xərcləri və məhsul təklifi, firma və sektor-tarazlıq qiyməti. Uzun müddətdə mənfəətin maksimumlaşdırılması: uzun müddətdə tarazlıq, sabit, artan və azalan xərcli sektorlarda uzun müddətdə təklif. Xalis rəqabət və səmərəlilik, produktiv səmərəlilik, allokativ səmərəlilik, maksimum istehlakçı və istehsalçı profisiti.

## Mövzu 4. Xalis inhisar

Xalis inhisarın xarakteristik xüsusiyyətləri. Giriş bariyerləri, miqyas effekti, hüquqi bariyerlər – patent və lisenziyalar, əsas resurslara nəzarət, qiymət və digər strateji bariyerlər. İnhisar tələbi /marjinal xərclər və qiymət, inhisar qiyməti. Buraxılış və qiymətin müəyyənləşdirilməsi. Xərc göstəriciləri, “marjinal gəlirlər = marjinal xərclər” qaydası. İnhisarın iqtisadi effektləri, qiymət, buraxılış və səmərəlilik, gəlir transferi, xərclərin ağırlaşması, iqtisadi siyasət variantları. Qiymət diskriminasiyası. Tənzimlənən inhisar. Sosial baxımdan optimal qiymət - P=MC, ədalətli gəlir qiyməti- P=ATC

## Mövzu 5. İnhisarçı rəqabəti və oliqopoliya

İnhisarçı rəqabətin xarakterik xüsusiyyətləri. İnhisarçı rəqabətdə qiymətlər və buraxılış. İnhisarçı rəqabət və səmərəlilik. Oliqopoliyanın xarakterik xüsusiyyətləri. Oliqopoliyanın üç modeli:razılaşmasız oliqopoliya, kartel və digər razılaşmalar, qiymət liderliyi modeli. Oliqopoliya və səmərəlilik

## Mövzu 6. Resurs bazarları

İstehsal resurslarına tələb. Resurs tələbinin marjinal məhsuldarlıq nəzəriyyəsi. Resurs tələbinin determinantları. Resurs tələbinin elastikliyi. Resursların optimal kombinasiyası. “Ən az xərc və maksimum mənfəət” qaydası. Gəlir bölgüsünün marjinal məhsuldarlıq nəzəriyyəsi.

## Mövzu 7. Əmək haqqının müəyyənləşdirilməsi

Əmək haqqının ümumi səviyyəsində məhsuldarlığın rolu, real əmək haqqı və məhsuldarlıq, real əmək haqqının uzunmüddətli trendi.Xalis rəqabətli əmək bazarı, tələb, təklif və bazar tarazlığı. Monopsoniya modeli. Əmək birliyi

modelləri, tələb artımı modeli, ekskluziv (sənətkarlıq) birlik modeli, inkluziv (sektoral) birlik modeli, əmək haqqı artımları və işsizlik. İkitərəfli inhisar modeli. Minimum əmək haqqı mübahisəsi.

## Mövzu 8. Renta, faiz və mənfəət

İqtisadi renta, qeyri-elastik təklif, rentanın tarazlıq səviyyəsi və tələb dəyişmələri, məhsuldarlıq və renta fərqləri. Faiz dərəcələri, faiz nəzəriyyələri, pulun zaman dəyəri, xalis faiz dərəcəsi. Mənfəət, iqtisadi mənfəət, mühasibat mənfəəti, iqtisadi mənfəətin mənbələri, mənfəətin funksiyaları.

## Mövzu 9. Dövlət sektoru

İctimai əmtəələr, ictimai əmtəələrin xarakteristikası, ictimai əmtəənin optimal kəmiyyəti, ictimai əmtəəyə tələb, marjinal fayda və marjinal xərclərin müqayisəsi, xərc-fayda analizi. Kənar effektlər, neqativ və pozitiv kənar effektlər, Kouz teoremi, dövlət müdaxiləsi, neqativ kənar effektlərə bazar əsaslı yanaşma.Asimmetrik informasiya, satıcılar və alıcılar haqqında qeyri-adekvat informasiya, “limon” bazarı.

## Mövzu 10. İctimai seçim nəzəriyyəsi və vergi

Üstünlükvermənin səs çoxluğu ilə müəyyən olunması, qeyri-effektiv nəticələr, səsvermə paradoksu, median seçici (səsverən) modeli. Dövlət uğursuzluğu, xüsusi maraqlar və mənfəət güdmə, aydın faydalar və gizli xərclər, məhdud və komplekt seçimlər, bürokratiya və qeyri-effektivlik, qeyri-təkmil institutlar. Vergi yükünün paylaşdırılması, ödəmə qabiliyyətinə qarşılıq əldə edilən faydalar, proqressiv, proporsional və reqressiv vergilər. Vergi yükü və səmərəlilik. Elastiklik və vergi yükünün təklif və tələb subyektləri arasında bölüşdürülməsi, səmərəlilik itkiləri.

## Mövzu 11. Mikroiqtisadi məsələlər və dövlət siyasəti

Antiinhisar siyasəti və tənzimləmələr. Antiinhisar qanunları , tarixi baxış, Şerman və Kleyton qanunları, Federal Ticarət Komissiyası Aktı. Sektoral tənzimləmələr, təbii inhsar və onun fəaliyyətinin tənzimlənməsi. Sosial tənzimləmə, fərqləndirici xüsusiyyətləri, sosial tənzimləmənin optimal səviyyəsi.

## Mövzu 12. Gəlir bərabərsizliyi, yoxsulluq və diskriminasiya

Gəlir bərabərsizliyi, gəlir kateqoriyaları üzrə bölgü, kvintillər üzrə gəlir bölgüsü. Lorens əyrisi və Cini əmsalı. Gəlirlərin dövlət tərəfindən yenidən bölgüsü və onun effektləri. Gəlir bərabərsizliyinin səbəbləri, bacarıqlar, təhsil və treyninq, diskriminasiya, seçimlər və risklər, sərvətin qeyri-bərabər paylanması, bazar gücü, uğur, əlaqələr və uğursuzluq. Bərabərlik və səmərəlilik arasında seçim. Yoxsulluq iqtisadiyyatı. Yoxsulluğun izahı, yoxsulluğun miqyası və ölçülməsi məsələləri. Diskriminasiya məsələləri.

## Mövzu 13. İmmiqrasiya məsələləri

Miqrasiya qərarına təsir edən iqtisadi amillər, gəlir imkanları, yerdəyişmə xərcləri, xərclər və faydalara təsir edən amillər. İmmiqrasiyanın iqtisadi effektləri, fərdi qazanclar, əmək haqqı, səmərəlilik və buraxılışa təsirləri, gəlir bölgüsü, fiskal təsirlər.Qeyri-rəsmi immiqrasiyada məşğulluq effekti, əmək haqqı effekti, qiymət effekti, fiskal təsirlər, digər nəticələri. Optimal immiqrasiya.

## Mövzu 14. Milli Hesablar Sistemi

Milli gəlirin uçotu. Ümumi daxili məhsul. ÜDM-in ölçülməsi metodları: xərc metodu, gəlir metodu və istehsal metodu. Digər milli hesablar, xalis daxili məhsul, milli gəlir, şəxsi gəlir, sərəncamda qalan gəlir. ÜDM-in çatışmazlıqları, qeyri-bazar fəaliyyəti, məhsulun keyfiyyətində yaxşılaşmalar, kölgə (qeyri-rəsmi) iqtsadiyyatı, ÜDM və ətraf mühit, buraxılışın strukturu və bölüşdürülməsi, rifahın qeyri-iqtisadi mənbələri. Nominal ÜDM, real ÜDM və deflyator.

## Mövzu 15. İqtisadi artım

İqtisadi artımın elementləri, təklif amilləri, tələb amilləri və səmərəlilik amilləri. İqtisadi artım modelləri . Harrod-Domar modeli, Solou modeli, kəsişən nəsillər (overlapping generations) modeli, endogen artım modeli. İstehsal imkanları analizi. İqtisadi artımın uçotu, əmək və əmək məhsuldarlığı, texnoloji inkişaf, kapitalın kəmiyyəti, təhsil və treyninq, miqyas effekti və resursların bölüşdürülməsi. İqtisadi artım və dayanıqlılıq məsələləri.

## Mövzu 16. Biznes tsikllər, işsizlik və inflyasiya

Biznes tsikllər, biznes tsiklərlin fazaları və səbəbləri. Məşğulluq və işsizlik. İşsizliyin ölçülməsi, işsizliyin növləri, tam məşğulluq, işsizliyin iqtisadi məsrəfləri.

İnflyasiya, onun ölçülməsi, növləri və ona təsir edən amillər. İnflyasiyanın yenidən bölüşdürmə effektləri. İnflyasiyadan zərər çəkənlər və faydalananlar, gözlənilən və gözlənilməz inflyasiyanın effektləri. İnflyasiya və buraxılış arasında əlaqə. Xərc inflyasiyası və real buraxılış, tələb inflyasiyası və real buraxılış, hiperinflyasiya və real buraxılış. İnflyasiya və işsizlik əlaqəsi. Fillips əyrisi, qısa və uzun zaman kəsiklərində Fillips əyrisi.

## Mövzu 17. Baza makroiqtisadi əlaqələr

Gəlir-istehlak və gəlir-qənaət əlaqələri. İstehlak funksiyası, qənaət funksiyası, orta və marjinal meyillilik əmsalları, istehlak və qənaətin qeyri-gəlir determinantları.

Faiz dərəcəsi və investisiya əlaqəsi, gözlənilən gəlirlilik səviyyəsi, real faiz dərəcəsi, investisiya tələbi əyrisi və onun dəyişməsi.

Multiplikator effekti, marjinal meyillilik və multiplikato. Ffaktiki multiplikatora təsir edən amillər.

## Mövzu 18. Makroiqtisadi modellər

Məcmu tələb-Məcmu təklif (AD/AS) modeli. Məcmu tələb /məcmu tələb bərabərliyi, məcmu tələb əyrisi və onun hərəkəti. Məcmu təklif, uzunmüddətli məcmu təklif əyrisi, qısamüddətli məcmu təklif əyrisi. Qısa və uzunmüddətli dövrdə makroiqtisadi tarazlıq.

IS-LM modeli. Əmtəə bazarı və IS əyrisi. Məcmu xərclər modeli, faiz dərəcələri, investisiyalar və IS əyrisi. Pul bazarı və LM əyrisi. Likvidliyə üstünlükvermə nəzəriyyəsi, gəlirlər, pula tələb və LM əyrisi. Əmtəə və pul bazarında tarazlıq – IS-LM modeli. Fiskal siyasətin IS əyrisinə təsiri və qısamüddətli tarazlığın dəyişməsi. Pul siyasətinin LM əyrisinə təsiri və qısamüddətli tarazlığın dəyişməsi.

## Mövzu 19. Mundell-Fleming modeli və məzənnə rejimi

Mundell-Fleming modeli. Əsas fərziyyə: kapitalın tam mobilliyi şəraitində kiçik açıq iqtisadiyyat, əmtəə bazarı və IS* əyrisi, pul bazarı və LM* əyrisi. Üzən məzənnə rejimində kiçik açıq iqtisadiyyat, fiskal siyasət, pul siyasəti və ticarət siyasətinin təsirlərinin analizi.

Fiks məzənnə rejimində kiçik açıq iqtisadiyyata fiskal və pul siyasətinin təsirlərinin analizi.

Faiz dərəcəsi fərqləri. Ölkə riski və məzənnə gözləntiləri.

Uzunmüddətli dövrdə Mundell-Fleming modeli.

## Mövzu 20. Fiskal siyasət, büdcə kəsri və dövlət borcu

Fiskal siyasət və AD-AS modeli . Fiskal siyasət alətləri: dövlət xərcləri və vergilər, ekspansionist (genişləndirici) fiskal siyasət, məhdudlaşdırıcı (daraldıcı) fiskal siyasətin qısa və uzunmüddətli təsirlərinin analizi.

Vergilər və məcmu təklif. Qənaət və investisiya təşviqləri, Laffer əyrisi. Fiskal siyasətin avtomatik və qurulmuş stabilləşdiriciləri. Fiskal siyasətin çatışmazlıqları, zaman uyğunsuzluğu problemi, sıxışdırıb çıxarma effekti.

Büdcə kəsiri, onun maliyyələşdirilməsi mənbələri və iqtisadi effektləri.

Dövlət borcu və onun iqtisadi effektləri.

## Mövzu 21. Pul, bankçılıq və monetar siyasət

Pul, bank sistemi və pulun yaradılması mexanizmi. Pul və onun funksiyaları. Pul təklifinin əsas komponentləri, pul bazası və pul aqreqatları (M0, M1, M2, M3).

Mərkəzi bank və bank sistemi vasitəsilə pul yaradılması mexanizmi, məcburi ehtiyat sistemi, pul yaradan bank əməliyyatları, pul multiplikatoru.

Faiz dərəcələri və monetar siyasət. Pula tələb, pul təklifi və tarazlıq faiz dərəcəsi.

Mərkəzi bankın konsolidasiya olunmuş balansının strukturu, aktivlər və öhdəliklərin strukturu.

## Mövzu 22. Monetar siyasət

Monetar siyasət alətləri, faiz dəhlizi və onun əsas parametrləri, uçot dərəcəsi, açıq bazar əməliyyatları, ehtiyat norması, hərraclar. Monetar siyasət hədəfləri, son hədəflər: qiymət stabilliyi, aktiv qiymətlərinin stabilliyi və real

iqtisadi göstəricilər (artım, məşğulluq və s.), aralıq hədəflər: faiz dərəcəsi, pul bazası, pul aqreqatı, məzənnə.

Monetar siyasət qaydaları, Fridman qaydası, Taylor qaydası və digərləri.

Monetar siyasətin, real ÜDM və qiymət səviyyəsi, səbəb-nəticə əlaqəsi, ekspansionist monetar siyasətin təsirləri, məhdudlaşdırıcı monetar siyasətin təsirləri.

**Mövzu 23. Makroiqtisadın müasir müzakirə məsələləri**

Makroiqtisadi qeyri-sabitliyin səbəbləri. Keynsçi və neokeynsçi baxışlar, monetarist baxışlar, real biznes tsikl yanaşması, koordinasiya problemləri.

İqtisadiyyatın özünütənzimləmə xüsusiyyətləri. Neoklassik və neokeynsçi yanaşmalar.

Stabilləşdirmə siyasəti, aktiv, passiv iqtisadi siyasət. İxtiyari və qaydalı makroiqtisadi siyasət.

Dövlət borcuna ənənəvi və Rikardoçu baxış.

**Mövzu 24. Beynəlxalq iqtisadiyyat: Beynəlxalq ticarət nəzəriyyələri və beynəlxalq ticarət siyasəti**

Əmək məhsuldarlığı və müqayisəli üstünlük: Rikardo modeli. Spesifik faktorlar modeli (P.Samuelson, R.Jones) və gəlir bölgüsü. Resurslar və ticarət: Hekşer-Olin modeli. Standart ticarət modeli. Miqyas effekti və istehsalın beynəlxalq yerləşməsi

Ticarət siyasətinin alətləri və effektləri. Tariflərin iqtisadi effektləri. İdxal kvotaların iqtisadi effektləri. İxrac subsidiyalarının iqtisadi effektləri.

**Mövzu 25. Tədiyə balansı hesabları və məzənnənin formalaşması**

Tədiyə balansının fundamental eynilikləri. Cari əməliyyatlar hesabı. Kapital hesabı. Maliyyə hərəkəti hesabı. Statistik xətalar. Ehtiyat aktivlərin dəyişməsi.

Valyuta bazarı və məzənnənin formalaşması, aktiv yanaşmas. Xarici valyutada aktivlərə tələb, aktiv gəlirliliyi. Valyuta bazarında tarazlıq. Faiz pariteti şərti, məzənnə dəyişikliyinin gəlirliliyə təsiri və tarazlıq məzənnə.Faiz dərəcələrinin və gözləntilərin dəyişməsinin cari məzənnəyə təsiri.

## Mövzu 26. Pul, faiz dərəcələri və məzənnə

Pula tələb və pul təklifi: tarazlıq faiz dərəcəsi. Pul təklifi və qısa zaman kəsiyində məzənnə. Pul, faiz dərəcələri və məzənnə əlaqələri.

Pul kütləsi, qiymət səviyyəsi və uzun zaman kəsiyində məzənnə. Pul kütləsi və qiymətlər, pul təklifinin dəyişməsinin uzun zaman kəsiyində effektləri və məzənnəyə təsirləri.

## Mövzu 27. Uzun müddətdə qiymət səviyyələri və məzənnə

Vahid qiymət qanunu. Alıcılıq Qabiliyyəti Pariteti (AQP). AQP və vahid qiymət qanunu, mütləq və nisbi AQP. Uzun müddətdə məzənnə modeli (AQP əsaslı). Monetar yanaşmanın əsas bərabərliyi, inflyasiya-faiz pariteti-AQP, Fişer effekti.

AQP ilə bağlı problemlərin izahı. Ticarət bariyerləri və qeyri-ticari sektor, azad rəqabətdən kənarlaşmalar, istehlakın strukturunda və qiymət səviyyəsinin ölçülməsindəki fərqlər.

## Mövzu 28. Fiks məzənnə rejimi və valyuta intervensiyaları

Mərkəzi bankın valyuta intervensiyaları və pul təklifi. Fiks məzənnə rejimində pul və valyuta bazarlarında tarazlıq. Fiks məzənnə rejimində stabilləşdirmə siyasəti, monetar və fiskal siyasət.

Tədiyə balansı böhranları və ölkədən kapital axını. İdarə olunan-üzən məzənnə rejimi və valyuta intervensiyalarının sterilizasiyası

## Mövzu 29. İqtisadi təlimlər

Merkantilizm. Fiziokratlar. Klassik məktəb. Neo-klassik məktəb. Keynsçilər. Monetaristlər. Yeni klassiklər. Təklif yönlü iqtisad məktəbi. Yeni Keynsçilər. Post Keynsçilər. İctimai seçim nəzəriyyəsi: Konstitusion iqtisadiyyat. Real konyunktur nəzəriyyəsi.

## İstifadə edilmiş ədəbiyyat


1. McConnell, Brue, Flyn. Economics: Prinsiples, Problems and Policies. 2011
2. N.G.Mankiw. Macroeconomics. 2005
3. N.G.Mankiw. Prinsiples of Economics.2005 (Azərbaycan dilinə tərcümə olunub)
4. Krugman, Obstfeld, Melitz. International Economics: Theory and Policy. 2018
5. Dornbusch, Fischer, Startz. Macroeconomics. 2017 (Azərbaycan dilinə tərcümə olunub)
6. David Romer. Advanced Macroeconomics.2011
7. Q.Menkyu. Ekonomiksin əsasları. Bakı, 2009
8. M.C.Atakişiyev, H.M.Abbasov, N.H.Abbasova, “Mikro və makroiqtisadiyyat”, Bakı, 2010